# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ MİNA PROBLEMİ

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Ad-Hoc Hesabatı**



# GİRİŞ

Müharibələr və silahlı münaqişələr insan hüquqlarının ən kobud və total pozuntuları ilə müşayiət olunur və çoxsaylı insan tələfatına səbəb olmaqla yanaşı, insan hüquq və azadlıqlarının tam və hərtərəfli təminatını təhlükə altında qoyur. Bu səbəbdən istər hərbi münaqişə, istərsə də post-münaqişə dönəmlərindəinsan hüquqlarının təminatı xüsusi əhəmiyyət kəsb edir.

27 sentyabr 2020-ci il tarixindən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikası ərazisinə növbəti hücumu nəticəsində mülki əhali arasında çoxsaylı insan tələfatı baş vermiş, təhsil və səhiyyə müəssisələri, sosial, mədəni, tarixi, dini obyektlər ağır artilleriya qurğularından və qadağan olunmuş silahlardan istifadə edilməklə dağıdılmış, sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətləri törədilmişdir.

Silahlı münaqişələr və ondan sonrakı müddətdə insan hüquqları pozuntularının tezliklə aradan qaldırılması, həssas qrupların hüquqlarının təmin olunması, tərəflərin sülhə çağırılması və nəticədə insan hüquqlarının pozuntularının qarşısının alınması istiqamətində milli insan hüquqları təsisatlarının üzərinə böyük iş düşür.

Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ilk gündən cəbhə xəttində, ona yaxın ərazilərdə, habelə mülki əhalinin hədəf alındığı şəhər və rayonlarda faktaraşdırıcı missiyalar həyata keçirmiş, bunların nəticəsində bir neçə hesabat, müxtəlif bəyanat və müraciətlər hazırlayaraq beynəlxalq təşkilatlara ünvanlamış, insan hüquqları pozuntularına dünya ictimaiyyətinin diqqətini cəlb etməyə çalışmışdır.

Bu hesabatda Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində Ermənistan tərəfindən basdırılmış tank və piyada əleyhinə minaların səbəb olduğu insan tələfatları, habelə mina xəritələrinin verilməməsinə görə mina terrorunun davam etməsi, insan həyatına və sağlamlığına, ümumilikdə insan hüquqlarına və regionun inkişafına zərərləri barədə məlumatlar təqdim edilmişdir.

Ad-hoc hesabat beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan tərəfindən törədilən müharibə cinayətləri və beynəlxalq öhdəliklərin yerinə yetirilməməsi ilə bağlı faktlara yönəltmək üçün hazırlanmışdır. Hesabat insan hüquqları

sahəsində fəaliyyət göstərən beynəlxalq və regional təşkilatlara, müxtəlif ölkələrin milli insan hüquqları təsisatlarına təqdim edilmək üçün hazırlanmışdır.

## ERMƏNİSTAN VƏ AZƏRBAYCAN ARASINDAKI MÜNAQİŞƏNİN QISA TARİXİ

Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə həyata keçirdiyi hərbi təcavüz və etnik təmizləmə siyasəti nəticəsində Ermənistan silahlı qüvvələri 1992-1993-cü illərdə Qarabağ və ətraf rayonlar - Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam, Laçın və Kəlbəcər də daxil olmaqla Azərbaycan ərazilərinin 20 faizini işğal etmişdir. İşğal dövründə Ermənistan beynəlxalq hüquq normalarını açıq şəkildə pozaraq Azərbaycana qarşı güc tətbiq etməklə yanaşı, beynəlxalq humanitar hüquq normalarını da kobud şəkildə pozmuşdur.

Qarabağ və ətraf yeddi rayonun Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olduğunu beynəlxalq hüquq, o cümlədən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli məlum 822, 853, 874 və 884 saylı Qətnamələri, BMT Baş Məclisinin "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı 14 mart 2008-ci il tarixli Qətnaməsi, AŞPA-nın 2005-ci il tarixli 1416 saylı qətnaməsi və 1690 saylı tövsiyəsi, Avropa Parlamentinin Dağlıq Qarabağla bağlı 23 oktyabr 2013-cü il tarixli qətnaməsi, Avropa Parlamentinin 12 dekabr 2018-ci il tarixli qətnaməsi bir daha sübut edir.

Ötən ilin 27 sentyabr tarixində Azərbaycanın yeni ərazilərinin işğalı məqsədilə Ermənistanın başlatdığı təxribat xarakterli hücum əməliyyatlarına cavab olaraq, Azərbaycan silahlı qüvvələri tərəfindən əks həmlə əməliyyatlarına başlanılmış, 44 gün davam etmiş müharibə 10 noyabr 2020-ci il tarixində Ermənistan, Azərbaycan və Rusiya arasında imzalanmış üçtərəfli bəyanata (bundan sonra – üçtərəfli bəyanat) əsasən başa çatmış və Azərbaycan 30 ilə yaxın işğal altında qalmış ərazilərini azad etmişdir.

# MİNALAR – GİZLƏNMİŞ TƏHLÜKƏLİ DÜŞMƏN

Bəzi silah növlərinə dair 1980-ci il tarixli Konvensiya hədəfi seçə bilməyən silahların istifadəsini qadağan edir. Həmin Konvensiyaya əlavə edilmiş 2-ci Protokolun 2.1-ci maddəsində "Mina" dedikdə yerin altında və ya üstündə və ya torpaq qatına yaxın və digər səthə yaxın yerləşdirilən və şəxsin və ya nəqliyyat vasitəsinin varlığı, yaxın məsafədə yerləşməsi və ya təması ilə partlaması və ya "məsafədən partladılması" üçün nəzərdə tutulmuş hər hansı artilleriya, raket, minaatan və ya buna bənzər vasitələrlə və ya təyyarədən atılan döyüş sursatı nəzərdə tutulur.[1]

Yeri gəlmişkən, Ümumi Qlobal Tərksilah siyasətinə uyğun olaraq mina hərəkatı qanunvericiliyinə və standartlarının yaradılmasına zəruri əhəmiyyət verən və bunun üzərində daimi olaraq çalışan Azərbaycan Respublikası 2007-ci ilin 5 dekabr tarixində BMT Baş Assambleyasının Minaların Qadağan Siyasətinin universallaşdırılması və tam həyata keçirilməsini tələb edən 62/41 saylı illik Qətnaməsinin leyhinə səs vermişdir.

Bəzi məlumatlara görə, dünyanın 60 ölkəsində ümumilikdə 110 milyon ədəddən çox mina basdırılmış vəziyyətdədir. Yalnız 2015-ci ildə dünyada 6500-dən çox şəxs mina partlayışı nəticəsində həlak olmuş və ya yaralanmışdır. Minalardan təmizləmə fəaliyyəti özlüyündə çətin proses olmaqla uzun müddəti əhatə edir. Məsələn, Mozambikdə bu proses 22 ildən çox davam etmiş, 2015-ci ildə bitmişdir.[2]

YUNİSEF-in məlumatlarına görə, 1975-ci ildən bu günə qədər minalardan 1 milyona qədər şəxs həlak olmuşdur ki, onlardan 1/3-ni 15 yaşına qədər olan uşaqlar təşkil edir. BQXK-nin statistikasına görə isə hər ay təqribən 2000 adam mina qurbanı olur ki, onlardan da 3/4 -ü mülki şəxslərdir.[3]

Ümumqəbuledilmiş fikrə görə dünyada ən çox mina basdırılan ərazilər Əfqanıstan, Kamboca, Laos, Bosniya və Herseqovina, Anqola hesab edilir.[4] Bu günkü reallıqdan çıxış edərək əminliklə söyləmək mümkündür ki, Azərbaycan

---

[1] [1] Protocol II to the CCW, (1980), Article 2 (1)
[2] https://www.bbc.com/russian/vert-fut-39492388
[3] slovar-gumanitarnoqo-prava.org
[4] https://www.bbc.com/russian/vert-fut-39492388

Respublikasının işğaldan azad edilmiş əraziləri bu siyahıda öncül yerlərdən birini tutur.

Təcrübədə piyada və tank əleyhinə minaların da daxil olduğu müxtəlif növ minalar mövcuddur. Piyada əleyhinə minaların müharibə silahı kimi istifadəsi qlobal miqyasda əsl humanitar faciədir. Minalar növ etibarilə hədəfi seçməyən silahlardır, yəni minalar mülki şəxs ilə döyüşçü arasında fərq qoymur. Təcrübə göstərir ki, əksər hallarda minaların qurbanları mülki əhali olur. Piyada əleyhinə mina partlamaları insanların həyat və ya sağlamlığının itirilməsinə, onların əlilliyi olan şəxslərə çevrilməsinə, uzun müddətli ağır psixoloji travmalara səbəbolur.

Xüsusilə uzun müddət davam edən silahlı münaqişələrin gedişində və ondan sonrakı dövrdə minaların yerləşdirilməsi, münaqişələr nəticəsində yurd-yuvalarından qaçmağa məcbur edilmiş şəxslərin geri qayıtması prosesini, ümumilikdə məskunlaşmanı əngəlləyir.

Minaların dağıntılara məruz qalmış ərazilərdə bərpa-quruculuq işlərinin görülməsinə, həmin ərazilərə humanitar yardımların göstərilməsinə əngəl törətdiyi bilinən gerçəklikdir.



*“Səngərləşmiş məzarlar” – Ağdam rayonunun Mərzili kəndində qəbiristanlıq.*

Ərazilərin minalanması orada mövcud olan resurslardan istifadə imkanlarını məhdudlaşdırır, kənd təsərrüfatını məhv edir, nəqliyyat və

kommunikasiyaların iflic olmasına və nəticədə bölgənin iqtisadi inkişafdan geri qalmasına səbəb olur. Minaların mövcudluğu ilə bağlı informasiya kifayət edir ki, turistlərin bölgəyə səfərləri gerçəkləşməsin.

Bölgənin silahla çirklənməsi Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) silah mütəxəssisi Chris Poole tərəfindən də təsdiqlənib: “Piyada-əleyhinə minalar, doldurulmuş silahlar, əl bombaları, tank-əleyhinə qumbaraatan (RPG), minaatan bombalar, tank əleyhinə raketlər, uzun-mənzilli raketlər ... hər yerdə çirklənmə var ”.[5]

*İşğaldan azad olunmuş ərazilərdə tapılan minalardan fotolar*



[5] ICRC Article, (16 April 2021), Nagorno-Karabakh Conflict: finding common ground in respect of the dead, at https://www.icrc.org/en/document/nagorno-karabakh-conflict-finding-common-ground-respect-dead

# ERMƏNİSTANIN HƏYATA KEÇİRDİYİ MİNA TERRORU

2002-ci ildə həyata keçirilmiş minaların mənfi təsirlərinin tədqiqatı zamanı ölkədə 643 icmanın mina və partlayıcı hərbi sursatların mənfi təsirinə məruz qaldığı müəyyən edilmişir. Bu icmadalardakı insanların sayı 111.000 nəfər təşkil edirdi. Bu gün həmin insanların sayı əhalinin artımı və geri dönüşü sayəsində 600.000 nəfərə yaxındır.[6]

10 noyabr 2020-ci il tarixdə hərbi əməliyyatların dayandırılması barədə üçtərəfli bəyanat qəbul edildi. Rəsmi məlumatlara əsasən hətta həmin Bəyanatın imzalanmasından sonrakı 200 gün ərzində işğaldan azad edilmiş ərazilərdə təxminən 100 milyon kvadratmetr sahədə 35000-dən çox minanın zərərsizləşdirilməsinə baxmayaraq, mina qurbanlarının sayı artmaqda davam edir.[7]



[6] ANAMA statistics
[7] ANAMA statistics

Ermənistan-Azərbaycan münaqişəsi zamanı piyada və tank əleyhinə minalardan geniş şəkildə istifadə olunmuşdur. Ermənistan tərəfindən basdırılmış minalar nəticəsində 1992-ci ildən 2020-ci ilin 27 sentyabrına qədər 2843 nəfər həlak olmuş və ya yaralanmışdır. Bunlardan 522-i hərbçi, 2321-i mülki şəxs olmuşdur. Qurbanlarının təxminən yarısı (1357 nəfər) atəşkəs zamanı baş verən mina partlamaları nəticəsində xəsarət alanlardır.[8]

Bəyanatın imzalanmasından sonra erməni hərbi birləşmələri işğal etdikləri və tərk etməli olduqları ərazilərdə, xüsusilə mülki ərazilərdə işarələnməmiş minaları basdırmış, son günlərə qədər təxribat diversiya qrupları vasitəsilə yeni minaların basdırılmasına cəhd etmişdir.




10 noyabr 2020-ci il tarixdən keçən 7 ay ərzində müxtəlif növ minalar və digər partlayıcı qurğuların partlaması nəticəsində 27 nəfər həlak olmuş, 115 nəfər müxtəlif bədən xəsarətləri almışdır. Bu müddət ərzində ümumilikdə 142 mina terrorunun qurbanının 49-u mülki əhali olmuşdur.[9] Digər 93 nəfər hərbçi cəsədlərin (o cümlədən erməni həbçilərinin cəsədlərinin) axtarışı, minaların

[8] ANAMA statistics

[9] Qeyd edilən məlumatlar ANAMA tərəfindən təqdim edilmiş və prokurorluq tərəfindən təsdiq edilmiş məlumatlardır.

təmizlənməsi kimi humanitar missiyalar, bölgəyə ərzaq və s. həyat əhəmiyyətli ləvazimatların çatdırılması zamanı həlak olmuş və yaralanmışdır.

28 noyabr 2020-ci il tarixdə Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində mülki əhalinin girişi qadağan olunan təhlükəli ərazidə mina partlaması baş vermişdir. Öz dədə-baba yurdlarını ziyarət etmək istəyən 4 nəfər, o cümlədən məcburi köçkünlərin problemlərini işıqlandırmaq üzrə ixtisaslaşan “Qayıdış” qəzetinin qadın baş redaktoru mülki avtomobildə tank əleyhinə minaya düşərək həlak olmuşdur.



*Füzuli rayonunda 4 nəfərin həlak olmasına səbəb olan mina partlamasının nəticəsi*

13 dekabr 2020-ci il tarixdə Ağdam rayonunda biri hərbi qulluçu, ikisi mülki şəxs olmaqla 3 nəfər minaya düşmüş, mülki şəxslərdən biri həlak olmuş, digər iki nəfər isə yaralanmışdır.

2 fevral 2021-ci il tarixdə Füzuli rayonu, Yuxarı Yağlıvənd kəndi ərazisində 3 nəfər mülki şəxs işğaldan azad olunmuş əraziyə daxil olarkən minaya düşüb. Minaya düşənlərdən 1-i yerində həlak olmuş, digərləri isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır.

4 fevral 2021-ci il tarixdə 3 nəfər şəxs mülki avtomobili ilə Cəbrayıl Rayonunun Nüzgar kəndi ərazisində tank əleyhinə minaya düşmüş, nəticədə bir nəfər həlak olmuş, iki nəfər yaralanmışdır.

16 aprel 2021-ci il tarixdə Ağdamın işğaldan azad olunan Yusifcanlı kəndindəki qəbiristanlıqda dəfn edilən yaxınlarının məzarını ziyarətdən qayıdarkən minaya düşən 6 nəfər mülki şəxsdən 2-si həlak olmuş, 3 nəfər müxtəlif bədən xəsarətləri almışdır.

İşğaldan azad edilmiş Suqovuşan qəsəbəsi (kəndi) yaxınlığında mina partlaması zamanı cəsədlərin axtarışı ilə məşğul olmaqla humanitar misiyanı həyata keçirən Azərbaycan Silahlı Qüvvələrinin polkovniki həlak olmuş, 1-i Rusiya sülhməramlısı, 4-ü erməni hərbçisi olmaqla 5 nəfər yaralanmışdır.

Mina partlaması və nəticədə insan tələfatı ilə bağlı son hadisə 4 iyun 2021-ci il tarixdə baş vermişdir. Azərbaycan Respublikası Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin birgə məlumatına görə, Azərbaycan Dövlət İnformasiya Agentliyinin və Azərbaycan Televiziyasının işğaldan azad olunmuş ərazilərdə çəkiliş aparan əməkdaşları iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində minaya düşmüşdür. Çəkiliş qrupunun olduğu nəqliyyat vasitəsinin hərəkət olan yolda tank əleyhinə minaya düşməsi nəticəsində ikisi öz peşə fəaliyyətini həyata keçirən jurnalist və biri dövlət qurumu əməkdaşı olmaqla, üç nəfər həlak olmuş, dörd nəfər isə yaralanmışdır.



Qeyd etmək lazımdır ki, may ayının son günlərində Kəlbəcər istiqamətində Azərbaycan ərazilərinə daxil olaraq, ərazidə yolların minalanmasına yönəlmiş təxribat törədərkən Ermənistan silahlı qüvvələrinin bir qrupu saxlanılıb[10]. Bu fakt, Ermənistan tərəfinin hərbi şəxslərlə yanaşı mülki şəxslərin həyat və sağlamlığına ciddi təhlükə yaratmaqda davam etdiyini və bölgədə vəziyyətin gərginləşməsinə xidmət etdiyini göstərir.

10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata əsasən, ermənilərin işğal etdikləri ərazilərdən çıxarkən belə ərazilərə yeni minalar basdırması sülh proseslərinə xələl gətirməklə terrorun davam etməsinə dəstək kimi qiymətləndirilməlidir. Yerli televiziya kanalına müsahibəsində Ermənistan ordusunun polkovniki Koryun Qumaşyan Azərbaycanın Kəlbəcər və Laçın rayonlarında çox sayda minalar basdırdıqlarını deyib. Müsahibədə deyilir: "*Mənim kontingentim və mən Laçın və Kəlbəcər yaxınlığında 17 yük maşını mina basdırmışıq, həmin minalara görə bu ərazidə heç bir şey edəbilməyəcəksiniz. Hərbi əsirlərimizi qaytarın və mən mina xəritəsini təqdim edərəm*".[11]

Hazırda Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) də daxil olmaqla minaların təmizlənməsi əməliyyatları ilə məşğul olan müvafiq qurumlar azad edilmiş ərazilərdə mina təmizləmə əməliyyatları həyata keçirir. ANAMA-nın verdiyi məumatlara əsasən, Agentlik 2021-ci il may ayında işğaldan azad edilmiş ərazilərdə 1533 mina və partlamamış hərbi sursat zərərsizləşdirib. May ayında aparılan minatəmizləmə əməliyyatları çərçivəsində Agentlik əməkdaşları 369 ədəd piyada əleyhinə mina, 74 ədəd tank əleyhinə mina, o cümlədən 1090 ədəd partlamamış döyüş sursatını aşkar edərək zərərsizləşdirib. [12]

---

[10]https://mfa.gov.az/az/news/7381/view

[11]Müsahibə videosunun linki: https://www.youtube.com/watch?v=zzdRKplrS1s; https://ordu.az/az/news/191731/ermeni-polkovnik-lacin-ve-kelbecerde-coxlu-sayda-mina-basdirdiqlarini-etiraf-edib-video

[12]Minaların zərərsizləşdirilməsininəksolunduğuvideoyabaxmaqüçünlinkəkeçidedin:https://drive.google.com/file/d/1YA6tuOM8HMRaZ7VXmW2yzTFSueG9OCUY/view?usp=sharing

# MİNA XƏRİTƏLƏRİNİN TƏQDİM EDİLMƏSİ MƏSƏLƏSİ

Üçtərəfli Bəyanatın imzalamasından xeyli müddət keçməsinə baxmayaraq, Ermənistan tərəfindən mina xəritələrinin təqdim edilməsi ilə bağlı sistematik addımlar atılmamışdır. Bu isə daha çox insan tələfatına yol açmaqla bərabər, regionda sülhün bərqərar olmasına maneə olur.

Ermənistan həm hərbçi, həm də mülki şəxslərin tələfatı ilə nəticələnə biləcək halların qarşısının alınması üçün məsuliyyətli davranmalı, regionda sülh, təhlükəsizlik və əməkdaşlığın reallaşdırılmasına dəstək verməlidir.

Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Dunya Miyatoviç də öz Tvitter hesabında, Dağlıq Qarabağ münaqişəsindən zərər çəkmiş ərazilərdə təcili minalardan təmizlənmə prosesinin aparılmasının vacibliyini vurğulamış və öz postunda bu cür qeyd etmişdir: "Kəlbəcərdə mina partlaması nəticəsində iki jurnalist də daxil olmaqla, üç nəfərin həlak olması, digər bir neçə nəfərin isə yaralanması Dağlıq Qarabağda münaqişədən zərərçəkmiş ərazilərdə beynəlxalq əməkdaşlıq yolu ilə minalardan təmizlənməyə təcili ehtiyacın olmasını göstərir".

Avropa İttifaqının Azərbaycandakı nümayəndə heyətinin rəhbəri, səfir Kestutis Yankauskas "Azərtac" İnformasiya Agentliyinə verdiyi müsahibəsində Aİ adından Kəlbəcər rayonunda iki jurnalistin həlak olması hadisəsinə görə kədər və başsağlığını ifadə edərək, qeyd etmişdir ki, Aİ-nın Avropa Mülki Müdafiə və Humanitar Yardım Komissiyası (ECHO) işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi prosesində Azərbaycana dəstək verməyə çalışır.

Ümumiyyətlə, beynəlxalq humanitar hüquqa əsasən, münaqişə tərəfləri bütün mina sahələrini qeyd etməli və "*vəziyyətlər icazə verməyəcəyi hallar istisna olmaqla, mülki əhaliyə təsir göstərə biləcək minaların uzaqdan quraşdırılması və ya atılması barədə qabaqcadan effektiv şəkildə xəbərdarlıq etməlidir*".[13] Bundan əlavə, beynəlxalq humanitar hüquq dəfn və krematoriya yerləri və ya qəbirlərin yanında mina (bubi) tələlərini və digər cihazların istifadəsini də qadağan edir.

Bəzi silah növlərinə dair Konvensiyanın 2-ci Protokoluna əsasən minalar basdırılarkən tərəflər onların yerini dəqiq şəkildə qeydə almalı və aktiv döyüşlər bitdikdən sonra razılığa gəlməli və bir-birlərinə müvafiq məlumatları, texniki və

[13]Protocol II to the CCW (1980), Article 6 (4)

maddi dəstəyi göstərməli, habelə minaların təmizlənməsi məqsədilə minaların yerini göstərməklə əməkdaşlıq etməlidirlər[14]. Ayrıca, İsveçrə, İsveç[15] kimi müxtəlif dövlətlərin Hərbi Təlimatlarında da bu cür xəritələrin əks tərəfə və BMT-yə verilməli olduğu ifadə edilir.

Azərbaycan Avropa İnsan Hüquqları Məhkəməsinə Ermənistan tərəfindən əvvəllər işğal olunmuş ərazilərin mina xəritələrini verməkdən imtina etməsi ilə bağlı çoxlu sayda müraciət edib. Ermənistanın insan həyatını xilas edəcək və əhali arasında itki riskini azaldacaq mina xəritələrini açıqlamaqdan imtina etməsi Avropa İnsan Hüquqları Konvensiyasında və onun 1 və 4 saylı Protokollarında təsbit edilmiş yaşamaq hüququ, şəxsi və ailə həyatına, mənzil və yazışmalara hörmət etmək hüququnu, mülkiyyətin qorunması hüququnu, eləcə də bir dövlətin ərazisi daxilində sərbəst hərəkət etmə hüququnu, habelə vətəndaşların qovulmasının qadağan edilməsinə dair müddəanı ciddi şəkildə pozur.

Hesabatın hazırlandığı müddətdə, 12 iyun 2021-ci il tarixində Ermənistanın Ağdam rayonu üzrə 97 min tank və piyada əleyhinə minanı özündəəks etdirən xəritələri Azərbaycan tərəfinə təqdim edilmişdir. Təqdim edilən xəritələr müqabilində Azərbaycanda saxlanılan 15 nəfər erməni Ermənistana təhvil verilmişdir.

Azərbaycanın işğaldan azad edilmiş yalnız bir rayonunda 100 minə yaxın müxtəlif növ minanın basdırılması faktı, Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyanın Yeğvard şəhərində seçkiqabağı təbliğat kampaniyası çərçivəsində öz seçiciləri ilə görüşdə Azərbaycana təqdim olunmuş mina xəritəsinin əllərində olan xəritələrin kiçik bir hissəsi olduğunu rəsmi olaraq bəyan etməsi narahatlığın nə dərəcədə əsaslı olduğunu və ən qısa müddətdə bütün xəritələrin təqdim edilməsinin zəruriliyi göstərir.

[14] CCW Protocol II, Articles 5(1)(A) and 9

[15] Basic Military Manual of Switzerland (1987); Sweden IHL Manual (1991), Section 3.3.2



Bu baxımdan, Ermənistan Respublikasının keçmiş dövlət başçısı Serj Sarkisyanın Geqarkunik rayonunda seçkiqabağı təbliğat kampaniyası çərçivəsində çıxışı zamanı ifadə etdiyi fikir xrestomatik, yəni səciyyəvi sayıla bilər. Bu dövlətin 3-cü Prezidentinin sözlərinə görə *"Mina xəritələrinin əhəmiyyəti həddindən artıq böyükdür. Həmin ərazilər tam 30 il ərzində minalanmışdır. Bu xəritələr 15 hərbçini qaytarmaqdan da artıq imkanlar verirdi."*[16]

Məhz 30 il ərzində minalanma prosesinin nəticəsidir ki, ərazinin təhlükəsizliyinin təmin olunması məqsədilə aparılan minatəmizləməəməliyyatları zamanı bəzən 18-20 mina xəttinin təmizlənməsi tələb olunur.

Acınacaqlı haldır ki, Ermənistan cəmiyyətində mina xəritələrinin Azərbaycana təhvil verilməsi təqdir olunmaq əvəzinə, əksinə cinayət kimi qiymətləndirilib, dövlət sirrinin yayılması kimi bəyan edilməkdədir.[17]

Mina xəritələrinin əldə edilməsi insanların, o cümlədən minatəmizləyənlərin həyatını və sağlamlığını təhlükədən xilas etməklə yanaşı, regionda yenidənqurma layihələrinin və məcburi köçkünlərin qayıdışı prosesini sürətləndirərdi.

Bununla bağlı, Azərbaycan Ombudsmanının beynəlxalq təşkilatlara ünvanladığı müraciətində Ermənistanın işğaldan azad olunmuş ərazilərdə piyada əleyhinə minaları basdırmaqla və minalanmış ərazilərin xəritələrini verməkdən

[16] https://www.google.com/amp/s/ru.armeniasputnik.am/amp/politics/20210613/27915133/Mozhno-bylo-vernut-bolshe-Serzh-Sargsyan-prokommentiroval-vozvraschenie-plennykh.html

[17] https://news.am/rus/news/648600.html?fbclid=IwAR0BdVlWazZ1IXWsw-U9aZNxe7Cmbu5ZEhkw3bXL4gCt617ihk9CGqWPy7g

boyun qaçırmaqla beynəlxalq humanitar hüququn fərq qoymadan hücum etmənin qadağan olunması prinsipini, 1949-cu il tarixli Cenevrə Konvensiyalarının I Əlavə Protokolunun tələblərini pozduğunu və bunu rəsmi şəkildə bəyan etməklə beynəlxalq ictimaiyyətə açıq hörmətsizlik nümayiş etdirdiyi bir daha bəyan edilmişdir.

Eyni zamanda, həmin müraciətdə günahsız insanların həyat və sağlamlığını qorumaq və insan hüquqlarının pozulmasına son qoymaq naminə işğaldan azad edilmiş digər rayonların da mina xəritələrinin verilməsi qətiyyətlə tələb edilmiş, bütün müvafiq beynəlxalq təşkilatlar mandatları çərçivəsində təcili tədbirlər görməyə çağırılmışdır.

## MİNALARIN DİGƏR TƏSİRLƏRİ

Minalar, kasetli döyüş sursatlarının (bombaların) və partlayıcı qalıqların təmizlənməsi məsələsi təkcə insan tələfatının qarşısını almaq baxımından deyil, eyni zamanda iqtisadi, sosial, mədəni və ekoloji inkişafa müsbət təsir edən məqam kimi əhəmiyyət daşımaqdadır.

Ermənistan tərəfindən mina xəritələrinin verilməməsi insan tələfatına səbəb olmaqla yanaşı minatəmizləmə işlərini ləngidir, bununla da 30 il müddətində doğma yurdlarından didərgin düşmüş, əhalinin həssas təbəqəsi olan məcburi köçkünlərin öz evlərinə və gündəlik həyatlarına geri dönməsinə maneə törədir.

Ermənistanın apardığı təcavüz siyasəti nəticəsində Azərbaycan Respublikasının ərazisinin 20 faizi işğal edilməklə yanaşı, şəhərlərimiz urbisidə məruz qalmış, azərbaycanlılara məxsus yaşayış evləri, məktəblər, dini və mədəni abidələr məhv edilmişdir. Beləliklə, ölkənin iqtisadiyyatına milyardlarla dollar məbləğində ziyan vurulmuşdur.

İşğaldan azad edilmiş ərazilərimizin qısa zamanda bərpa edilməsi, yenidən həmin ərazilərdə məskunlaşma, iş yerlərinin, sənaye müəssisələrinin inşası bölgənin çiçəklənməsinə səbəb olmaqla, bütövlükdə Cənubi Qafqaz regionunun da inkişafına müsbət təsir edəcəkdir.

Ərazilərin minalardan, kasetli bomba və partlayıcı qalıqlardan təmizlənməsi BMT tərəfindən 2015-ci ildə qəbul edilmiş Dayanıqlı İnkişaf

Məqsədlərinə (DİM) çatmaq baxımından da əhəmiyyətlidir. DİM-in 16.1-ci hədəfi hər yerdə zorakılığın bütün formalarını və bununla əlaqəli ölüm səviyyəsini əhəmiyyətli dərəcədə azaltmağa yönəlmişdir. Minatəmizləmə fəaliyyəti fiziki blokada və hərəkətetmə məhdudiyyətlərini aradan qaldıracaq və bundan faydalanan şəxslərin səhiyyə xidmətlərinə (3-cü məqsəd), təhsil (4-cü məqsəd), su və kanalizasiya (6-cı məqsəd) kimi əsas sosial xidmətlərə təhlükəsiz çıxışını asanlaşdıracaq. Bundan əlavə, iqtisadi bazarlara və təbii qaynaqlara çatımlılıq zərərçəkmiş icmalarda dolanışıq imkanlarını təmin edə və məhsuldarlığı inkişaf etdirə bilər ki, bu da yoxsulluq, qidalanma və qida təhlükəsizliyi problemlərini həll etməyə kömək edə bilər (1 və 2-ci məqsədlər).

Xüsusilə zərər çəkmiş icmalardakı qadın və gənclər üçün layiqli iş (məs. mina təmizləyənlər, tibb işçiləri, dəstək xidmətləri) (8-ci məqsəd) və ötürüləbilən bacarıqlar (komanda işi, ünsiyyət, fərdi inkişaf və s.) təklif edən minatəmizləmə fəaliyyətləri infrastrukturun (9-cu məqsəd) və iqtisadiyyatın bərpasına xidmət edir. Minaların təmizlənməsi eyni zamanda zərərçəkmiş və ya çəkməmiş bütün icmalar, şəhərlər və digər inkişaf sektorlarında enerji xidmətlərinin daha əlçatan olması (7-ci məqsəd) üçün enerji şəbəkəsi infrastrukturunun bərpasını hədəfləyir.[18]

Beləliklə, ərazilərin minalardan təmizlənməsi "sıfır qurban" hədəfinə çatmaqla yanaşı, iqtisadi və mədəni inkişafa, sosial rifaha və ekoloji təhlükəsizliyə töhfə vermiş olardı.

## ERMƏNİSTAN TƏRƏFİNDƏN POZULMUŞ BEYNƏLXALQ HUMANİTAR HÜQUQ NORMA VƏ PRİNSİPLƏRİ

Beynəlxalq humanitar hüququn pozulmasına görə məsuliyyət haqqında 149-cu Qaydaya uyğun olaraq, bir dövlət törətdiyi beynəlxalq humanitar hüquq pozuntularına, o cümlədən onun silahlı qüvvələri də daxil olmaqla qurumları tərəfindən törədilən pozuntulara (a); dövlətin vəzifələrini yerinə yetirməklə mükəlləf olan şəxsləri və ya qurumları tərəfindən törədilən pozuntulara (b); faktiki olaraq, onun təlimatı və ya rəhbərliyi və ya nəzarəti altında fəaliyyət göstərən şəxslər və ya qruplar tərəfindən törədilən pozuntulara

[18] file:///C:/Users/HP/Desktop/AdHoc%20Report/UNDP%20GICHD%20Mine%20Action-SDG%20Study%20-%20web.pdf

(c); və öz törətdiyi əməl kimi qəbul etdiyi lakin fərdlər və ya qruplar tərəfindən törədilən pozuntulara (d) görə məsuliyyət daşıyır.[19]

Yuxarıda qeyd olunanlar, Azərbaycan Respublikasının dünya birliyi tərəfindən tanınan ərazilərini ələ keçirmək yolu ilə ölkəmizə qarşı təcavüzkar müharibə aparan Ermənistan Respublikasının birbaşa beynəlxalq hüquqi məsuliyyət daşıdığını göstərir.

## Hədəfi Fərqləndirmə Prinsipi

Artıq qeyd edildiyi kimi, Ermənistan beynəlxalq humanitar hüquqla müdafiə olunan mülki şəxslərin həyatını risk altında qoyaraq 1949-cu il Cenevrə Konvensiyaları və onun Əlavə Protokollarından irəli gələn beynəlxalq öhdəlikləri, daha dəqiq beynəlxalq humanitar hüququn əsas tətbiqi prinsiplərindən biri olan hədəfi fərqləndirmə prinsipini pozmuş və hələ də pozmaqda davam edir.

1977-ci il tarixli I Əlavə Protokolun 48-ci maddəsində qeyd edildiyi kimi, bu məcburi prinsip bütün münaqişə tərəfləri tərəfindən nəzərə alınmalıdır. Beləliklə, Ermənistan bu sənədə tərəf bir dövlət olaraq, açıq-aşkar bu normanı pozmuşdur.

Minaların mülki şəxslər və döyüşçülər arasındakı fərqi ayırd edə bilməyən "kor" silahlar olduğunu və bu səbəbdən seçim edilməyən həmlə təsirlərinə malik olduğunu[20], habelə piyada əleyhinə minalardan mülki insanların ölümünə, onlara ziyan vurulmasına və yaralanmasına səbəb olmaq üçün qəsdən istifadə edilə biləcəyini nəzərə alaraq Ermənistan bu prinsipi pozmuşdur. Belə ki, düşmən dövlət istər nəqliyyat, istərsə də piyadalar əleyhinə minalardan yalnız hərbi məqsədlər üçün deyil, o cümlədən yaşayış məskənlərimizdə, qəbiristanlıqlarda yerləşdirməklə mülki şəxsləri də hədəf almaq üçün istifadə etmişdir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Ermənistanın silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərinə yerləşdirilmiş partlamamış silahlarla, mina və müharibənin partlayıcı qalıqları ilə çirklənmiş ərazilərin xəritələrini təhvil verməkdən imtinası hələ daha çox insan tələfatına səbəb olacaqdır.

[19] https://ihl-databases.icrc.org/customary-ihl/eng/docs/v1_rul_rule149

[20] Article 3 (5), Protocol II to the Convention on Certain Conventional Weapons (1980)

Hədəfi seçə bilməyən silahların qadağan edilməsi BMT Baş Assambleyasının qəbul etdiyi çoxsaylı qətnamələrdə də vurğulanır.

## NƏTİCƏ

Regionda insan həyatına və sağlamlığına, ümumilikdə insan hüquqlarına ciddi təhdid olan bu vəziyyətdən dərin narahatlıq hissi keçiririk. Hesab edirik ki, müharibədən sonra minalanmış ərazilərin xəritəsinin təqdim olunması sülhə doğru atılmış ciddi bir addım olardı.

Ermənistan Avropa İnsan Hüquqları Konvensiyasında və onun 1 və 4 saylı Protokollarında təsbit edilmiş yaşamaq hüququnu, şəxsi və ailə həyatına, mənzil və yazışmalara hörmət etmək hüququnu, mülkiyyətin qorunmasıhüququnu, eləcə də bir dövlətin ərazisi daxilində sərbəst hərəkət etmə hüququnu, habelə vətəndaşların qovulmasının qadağan edilməsinə dair müddəanı ciddi şəkildə pozur.

Ermənistanın mina xəritələrini verməkdən imtina etməsi, azad edilmiş ərazilərdən çıxarkən Ermənistan ordusu tərəfindən mülki obyektlərdə minaların basdırılması faktları, son günlərə qədər təxribat qrupları vasitəsi ilə yeni minaların yerləşdirilməsi cəhdləri daha çox insan itkisinə səbəb olmaqla, beynəlxalq humanitar hüququn ciddi pozuntularıdır və bölgədə yeni münaqişə ocaqları yaradır.

Mina xəritələrinin verilməsindən imtina Ermənistanın da tərəfdar olduğu insan hüquqları sahəsindəki beynəlxalq müqavilələrdə əks olunmuş yaşamaq, mülkiyyət, sağlamlıq və s. hüquqların davamlı pozuntularına səbəb olmaqdadır.

Azərbaycan Ombudsman institutu olaraq, mövcud vəziyyətə görə bir daha narahatlığımızı bildirir, müvafiq insan hüquqları beynəlxalq təşkilatlarını ərazilərin minalardan təmizlənməsi üçün müvafiq xəritələrin Azərbaycana verilməsi məqsədilə Ermənistana qarşı təsirli və qətiyyətli tədbirlər görməyə çağırırıq. Hesab edirik ki, aidiyyəti beynəlxalq insan hüquqları qurumları baş verən bu insan hüquqları pozuntularına etinasız yanaşmamalı və mandatları çərçivəsində müvafiq addımlar atmalıdırlar. BMT və digər beynəlxalq təşkilatlar, eləcə də, dövlətlər hərəkətə keçməli və təcavüzkara qarşı təzyiqləri artırmalıdır. Onlarla, yüzlərlə insan həyatının xilası, Qarabağda və regionda dinc

həyatın və birgə yaşayışın bərpası mina təmizləmələri başa çatdırılmadan qeyri-mümkündür.

Sonda Ombudsman olaraq beynəlxalq ictimaiyyəti Cənubi Qafqazda tam sülhü bərqərar etmək, təhlükəsizlik mühiti yaratmaq, məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə tez bir zamanda qayıtmasını təmin etmək üçün bütün səyləri birləşdirməyə və dünyada mina qurbanlarının sayının artmasının qarşısını almağa yönəlik addımlar atmağa çağırıram.